**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**“NAXÇIVAN” UNİVERSİTETİ**
**FƏNN SİLLABUSU**

Təsdiq edirəm:___________
Kafedra müdiri: Dos.N.M.Məmmədova
Tarix: <u>07 </u>sentyabr 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | M.T.Sidqi və uşaq ədəbiyyatı |
| | **Fakültə** | Pedaqoji |
| | **İxtisas** | Azərbaycan dili və ədəbiyyat müəllimliyi |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavr |
| | **Kurs** | IV |
| | **Semestr** | VII |
| | **Təlimçi** | Nurlana Sabir qızı Əliyeva |
| | **e-mail** | n.eliyeva@nu.edu.az |
| | **Telefon** | 050-562-97-78 |
| | **Dərs günləri və saatları** | IV gün 3-cü saat mühazirə |
| **Tədris dili** | Azərbaycan | |
| **Baza/ Seçmə** | Seçmə | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | 1. **Azərbaycan ədəbiyyat tarixi- Bakı, Azərb. Elmlər Akademiyasının nəşriyyatı**<br>2. **A.Axundov.,S.Vəliyev. Naxçıvanın şair və yazıçıları. Bakı, 2008**<br>3. **Y.Eyvazov.Məhəmməd Tağı Sidqinin publisistikası. Naxçıvan, 2004**<br>4. **İ.Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti.Bakı,2004**<br>5. **Ə.Qədimov. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı, 2004**<br>6. **F.Xəlilov.Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan, Əcəmi, 2015**<br>7. **N.Əliyeva. Məhəmməd Tağı Sidqi. Naxçıvan, 2020**<br><br>**Əlavə dərsliklər, vəsaitlər və mənbələr:** | |
| **İstifadə ediləcək web səhifələr** | | |
| **Fənnin xülasəsi** | M.T.Sidqi vəuşaq ədəbiyyatı ali məktəblərin filoloji istiqamətdə olan ixtisaslarının fənn proqramlarında əsas yer tutur.. Bildiyimiz kimi, müasir məktəblərin əsas və mühüm vəzifəsi hərtərəfli inkişaf etmiş yeni insan yetişdirmək, onu tərbiyə etmək və formalaşdırmaqdan ibarətdir. Bu mühüm və lazımlı vəzifənin yerinə yetirilməsi orta və ya ali məktəblərdə ədəbiyyat kursunun tədrisi qarşısında çox ciddi və məsuliyyətli vəzifələr qoyur. | |
| **Fənnin məqsədləri** | Bu fənnin əsas məqsədi şagird və ya tələbələrə M.T.Sidqi vəuşaq ədəbiyyatının nəzəri əsaslarını mənimsətmək, onların bədii, estetik zövqünü inkişaf etdirmək və onlarda ədəbiyyatımızın bu dövrü haqqında düzgün məlumatların verilməsindən ibarətdir. | |
| **Öyrənmə nəticələri** | Kursun sonunda tələbələr bilməlidir ki, M.T.Sidqivəuşaq ədəbiyyatının bir sıra əhəmiyyəti vardır. Bu fənni öyrənməklə XIX əsr bir sıra sənətkarlar haqqında məlumat əldə etmiş olarlar. Bu kursun əsas əhəmiyyəti ondan ibarətdir ki, tələbələr mühazirələrdə, seminar və laborator məşğələlərdə qazandıqları elmi-nəzəri bilikləri sonrakı kurslarda özlərinin iş təcrübəsində tətbiq edirlər. Bu fənni öyrənməklə həmdə tələbələr ifadəli oxu sənətinin qayda və qanunlarını, hər hansı bir bədii əsərin, o cümlədən poeziya nümunələrinin düzgün, ifadəli oxusunu, şeirin vəznini, bölgüsünü, ölçüsünü, qafiyələnməsini, bədii təsvir və ifadə vasitələrini, sadə və mürəkkəb məcazlar sistemini, həmçinin ifadəli oxuda istifadə olunan elmi-nəzəri | |

<table>
<tr><td></td><td colspan="3">məsələləri şagirdlərə çatdırmağı bacarırlar, ədəbiyyatın qədim dövr nümayəndələri, qədim yazılı abidələrimiz, mədəniyyətimiz,incəsənətimiz haqqında bilik əldə edirlər.</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">Fənnə aid ümumi xarakterli məlumatlar verilir</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">Tələbələrə fərdi mövzuda prezentasiyalar verilir və müzakirə aparılır</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td colspan="2">Yeni mövzu əyani vəsaitlərin (PPT və video fayllar) nümayişi ilə izah edilməlidir</td></tr>
<tr><td>Simulyasiya</td><td colspan="2">Tələbələrə dərsə aid nümunələr üzərində praktiki iş aparılmalı, simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilməlidir</td></tr>
<tr><td>Layihə</td><td colspan="2">Tələbələrə dərsə aid fərdi labarator işləri verilir və simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilir</td></tr>
<tr><td>Digər</td><td colspan="2">Tədris prosesində fərdiləşdirilmiş (oyunlar üçün materiallar, testlər) və vizual (slaydlar, sxemlər, qrafiklər, şəkillər, sənəd nümunələri) materiallar kimi təlim metodlarından istifadə edilir.</td></tr>
<tr><td rowspan="11">Qiymətləndirmə</td><td colspan="2">Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td colspan="2">Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td colspan="2">1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="2">- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td colspan="2">- Tələbələrin sərbəst işinə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td colspan="2">- Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal</td><td>30 bal (30%)</td></tr>
<tr><td colspan="3">Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.</td></tr>
<tr><td colspan="2">2. İmtahan nəticələrinə görə maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="3">3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla”</td></tr>
<tr><td colspan="2">Cəmi:</td><td>100 bal (100%)</td></tr>
<tr><td colspan="3"></td></tr>
<tr><td>Qiymətləndirmə metodları</td><td colspan="3">Tapşırıqlar: Sərbəst iş mövzuları verilir və semester sonu yoxlanılıb qiymətləndirilir.<br>“M.T.Sidqi və uşaq ədəbiyyatı” (Azdə m- IV kurs)<br>Sərbəst iş mövzuları:<br>1. M.T.Sidqinin həyatı haqqında məlumat<br>2. M.T.Sidqinin Azərbaycan maarifçiliyində oynadığı rol<br>3. M.T.Sidqinin açdığı “Əxtər” və “Tərbiyə” məktəblərinin rolu<br>4. M.T.Sidqinin yaradıcılıq yolu<br>5. M.T.Sidqinin lirikası haqqında məlumt<br>6. M.T.Sidqinin dini poeziysı<br>7. M.T.Sidqinin “Qız məktəbi” haqqında məlumat<br>8. M.T.Sidqinin aşiqanə-lirik qəzəlləri<br>9. M.T.Sidqinin qəzəllərində süjetli lirika<br>10. M.T.Sidqinin peyzaj lirikası<br>11. M.T.Sidqinin maarifçi şeir yaradıcılığı<br>12. M.T.Sidqinin maarifçi şərqiləri<br>13. M.T.Sidqinin nəsr yaradıcılığı</td></tr>
</table>

| | |
|---|---|
| | 14. M.T.Sidqinin mənzum nəsihətnaməsi<br>15. “ Məsnəviyyati-mədəniyyə” adlı tənqidi realist əsəri<br>16. M.T.Sidqi və uşaq ədəbiyyatı<br>17. M.T.Sidqinin uşaq hekayələrinin mövzusu<br>18. “Ata və ana məhəbbəti” hekayəsi<br>19. “İki bacının söhbəti” hekayəsi<br>20. “Rübabə”, “Analar bəzəyi” hekayələri<br>21. “Övlad məhəbbəti” hekayəsi<br>22. “Ruqiyyənin söhbəti” hekayəsi<br>23. M.T.Sidqinin “Heykəli-insanə bir nəzər” əsəri<br>24. M.T.Sidqinin “Puşkin ” əsəri<br>25. M.T.Sidqinin yaradıcılığında nəziræçilik ənənələri<br>26. M.T.Sidqinin “Əncüməni-şüəra” ədəbi məclisindəki fəaliyyəti<br>27. M.T.Sidqinin açdığı “Əxtər” və “Tərbiyə” məktəblərinin rolu<br>28. M.T.Sidqinin qəzəllərində süjetli lirika<br>29. M.T.Sidqinin mənzum nəsihətnaməsi<br>30. M.T.Sidqinin uşaq hekayələrinin mövzusu |
| **Qaydalar** | **Davamiyyət:** Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Buraxılmış imtahan və ya tapşırıqlar:** Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər. |

**Tematik plan**

| Həftə | Tarix | Mövzular | Dərslik / Tapşırıq / Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **15.09.2022** | **XIX əsr Ordubad ədəbi mühiti: M.T.Sidqinin həyatı, yaradıcılığı**<br>**Qısa icmalı**: 1830-40-cı illərdə Azərbaycan ədəbiyyatının ikinci inkişaf mərhələsi hqqında. XIX əsr Azərbaycan ədəbiyyatının realist istiqamətdə inkişafı. Məktəblərin, tetrın bir sıra şəhərlərdə inkişafı. Maarifçiliyin meydana gəlməsi. Azərbaycanın ilk maarifçiləri: A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazeh. Maarifçilərin elmi-pedaqoji fəaliyyəti. M.T.Sidqinin maarifçilik hərəkatında fəal iştirakı. Ordubadda dünyaya gəlməsi(1854-cü il). Həmin dövrdə Ordubadın ictimai-siyasi durumu. Ordubadinin atası Kərbəlayı Səfər haqqında məlumat. Anası Tutu xanımın Nəbati ilə qohumluğu. M.T.Sidqinin təhsil illəri. Şərq ədəbiyyatına, ərəb, fars dillərinə dərindən bələd olması haqqında. Ölümünün səbəbləri barədə. M.T.Sidqinin bədii yaradıcılığa başladığı ilk gənclik illəri. İlk bədii yaradıcılığa dini | 1. Azərbaycan ədəbiyyat tarixi- Bakı, Azərb. Elmlər Akademiyasının nəşriyyatı<br>2. A.Axundov.,S.Vəliyev. Naxçıvanın şair və yazıçıları. Bakı, 2008<br>3. Y.Eyvazov.Məhəmməd Tağı Sidqinin publisistikası. Naxçıvan, 2004<br>4. İ.Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti.Bakı,2004<br>5. Ə.Qədimov. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı, 2004<br>6. F.Xəlilov.Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan, Əcəmi, 2015 |

| | | | |
|---|---|---|---|
| | | poeziya ilə başlaması. Aşiqanə-lirik qəzəllərində də dinlə əlaqənin təsiri. | 7. N.Əliyeva. Məhəmməd Tağı Sidqi. Naxçıvan, 2020.səh.22-70<br>8. İnternet saytı |
| 2 | **22.09.2022** | **"Əxtər" və "Tərbiyə" məktəblərində Sidqinin rolu**<br>**Qısa icmalı:** M.T.Sidqinin 1892-ci ildə Ordubadın varlı və maarifpərvər ziyalılarından olan Hüseyn Sultan Kəngərli ilə birlikdə açdığı "Əxtər" ("Ulduz") məktəbi haqqında. Bu məktəbin gələcək üçün üsuli-cədid müəllimlərini hazırlaması haqqında. M.T.Sidqinin pedoqoji fəaliyyətinin Naxçıvanziyalılarının diqqətini cəlb etməsi. 1894-cü ildə Naxçıvanda "Tərbiyə" məktəbinin əsasını qoyması. Bu məktəbdə rus dilinin xarici dil kimi ayrıca tədrisi. Fənnlərin ana dilində keçirilməsi və ilk milli məktəb olması. 1896-cı ildə həmin məktəbin rus-Azərbaycan məktəbinə çevrilməsi. Müəllimlik şəhadətnaməsi olmadığından M.T.Sidqinin dərs deməkdən məhrum olunması. Yenidən çəhadətnamə alması. | 1. Azərbaycan ədəbiyyat tarixi-Bakı, Azərb. Elmlər Akademiyasının nəşriyyatı<br>2.A.Axundov.,S.Vəliyev. Naxçıvanın şair və yazıçıları. Bakı, 2008<br>3.Y.Eyvazov.Məhəmməd Tağı Sidqinin publisistikası. Naxçıvan, 2004<br>4.İ.Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti.Bakı,2004<br>5.Ə.Qədimov. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı, 2004<br>6.F.Xəlilov.Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan, Əcəmi, 2015.səh.32-45<br>7.N.Əliyeva. Məhəmməd Tağı Sidqi. Naxçıvan, 2020<br>8.İnternet saytı |
| 3 | 29.09.2022 | **Sidqinin lirikası, maarifçi şeir yaradıcılığı**<br>**Qısa icmalı:** M.T.Sidqinin lirikasının əsas mövzusu: dini-lirik qəzəlləri, aşiqanə-lirika, süjetli lirika, peyzaj lirikası, maarifçi şeir yaradıcılığı, maarifçi şərqilər haqqında. Lirikasında vətənə məhəbbət, romantik-simvolik obrazların təsviri. M.T.Sidqinin lirik qəhrəmanı. Lirik şeirlərinin dili. Azərbaycan və fars dillərində qələmə aldığı lirik şeirləri. M.T.Sidqinin bir sıra qəzəllərində millət dərdinin, vətən və xalq taleyi probleminin qoyulması.<br>Yaradıcılığının ilk dövrlərində dini poeziyanın yayılması. Dini poeziyanın M.T.Sidqinin yaradıcılığına göstərdiyi təsir. Bu təsir nəticəsində M.T.Sidqinin qələmə aldığı Kərbəla müsibətinin qəmli səhnələrinin verilməsi. Dini-lirik qəzəllərində imam Hüseynin faciəsinin nəzmə çəkilməsi. | 1.Azərbaycan ədəbiyyat tarixi-Bakı, Azərb. Elmlər Akademiyasının nəşriyyatı<br>2.A.Axundov.,S.Vəliyev. Naxçıvanın şair və yazıçıları. Bakı, 2008<br>3.Y.Eyvazov.Məhəmməd Tağı Sidqinin publisistikası. Naxçıvan, 2004<br>4.İ.Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti.Bakı,2004<br>5.Ə.Qədimov. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı, 2004<br>6.F.Xəlilov.Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan, Əcəmi, 2015<br>7.N.Əliyeva. Məhəmməd Tağı Sidqi. Naxçıvan, 2020.səh.79-87<br>İnternet saytı |

| | | | |
|---|---|---|---|
| **4** | 17.11.2022 | **Sidqinin nəsr yaradıcılığı, uşaq hekayələrinin mövzusu**<br>**Qısa icmalı**: Böyük müəllim, görkəmli pedaqoq kimi şöhrət qazanan M.T.Sidqinin uşaq ədəbiyyatı yaradıcılarından biri olması. M.T.Sidqinin uşaq ədəbiyyatı nümunələrində mütərəqqi maarifçi ideyalarının təsviri. Bu əsərlərdə məktəbə, elmə rəğbət, müəllimə hörmət, yeni nəslin tərbiyəsi, insan və cəmiyyəti dərk etməyə çağırış. Müəllim-yazıçının uşaqlar üçün müxtəlif janrlarda yazdığı bədii əsərləri. Azərbaycan uşaq ədəbiyyatının əsas janrlarından olan mənzum hekayənin M.T.Sidqi tərəfindən zənginləşdirilməsi. M.T.Sidqinin uşaq hekayələrinin "Əxlaq nümunələri" və "Qızlara hədiyyə" dərsliklərində toplanması.<br>M.T.Sidqinin dərsliklərə saldığı imla mətnləri içərisində uşaqlar üçün yazdığı hekayələri. "Qızlara hədiyyə" dərsliyinə saldığı "Sitarə və xalası", "Ruqiyyənin söhbəti", "Övlad məhəbbəti", "İki bacının söhbəti" kimi hekayələrinin bədiiliyi. Bu əsərlərlə milli uşaq nəsrinin ilk kamil nümunələrinin yaradılması. Həmin bədii nəsr nümunələrindən istifadə əsasında özünün nəsihətamiz fikirlərini ifadə etməsi. | 1. Azərbaycan ədəbiyyat tarixi- Bakı, Azərb. Elmlər Akademiyasının nəşriyyatı<br>2. A.Axundov.,S.Vəliyev. Naxçıvanın şair və yazıçıları. Bakı, 2008<br>3. Y.Eyvazov.Məhəmməd Tağı Sidqinin publisistikası. Naxçıvan, 2004<br>4. İ.Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti.Bakı,2004<br>5. Ə.Qədimov. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı, 2004<br>6. F.Xəlilov.Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan, Əcəmi, 2015<br>7. N.Əliyeva. Məhəmməd Tağı Sidqi. Naxçıvan, 2020. Səh.123-126<br>8. İnternet saytı |
| **5** | 24.11.2022 | **Sidqinin uşaq əsərlərinin təsir dairəsi**<br>**Qısa icmalı:** "Ata və ana məhəbbəti" hekayəsində müəllifin Azərbaycan milli məişətinə xas olan ata-ana və övlad məhəbbəti ideyasının uşaqlara təlqin edilməsi. Nərgizxanımla Qonçabəyimin bağçadakı quşların balalrına bəslədikləri məhəbbətin şahidi olması. Uşaqların da valideynlərinə sevgi və ehtiram bəsləmələrinin zəruriliyi haqqında. "İki bacının söhbəti" hekayəsində elm, təhsil etməyin fəziləti haqqında. Elm, təhsil etməkdə məqsədin nə olduğunu Səadətin İzzətə tövsiyə və cavabı. Dünyada insanın hər işində və əməlində elmə olan ehtiyacı haqqında.<br>"Rübabə" hekayəsində öz fərdi və milli xüsusiyyətləri ilə başqalarından seçilən bir məktəbli qızın obrazının yaradılması. Azərbaycan məktəbliqızlarınaxas olan müsbət mənəvi-əxlaqi keyfiyyətlərin Rübabə surətində cəmləşdirilməsi.<br>"Analar bəzəyi" hekayəsində M.T.Sidqinin bütün həyatını dogma balalarının tərbiyəsinə sərf | 9. Azərbaycan ədəbiyyat tarixi- Bakı, Azərb. Elmlər Akademiyasının nəşriyyatı<br>10. A.Axundov.,S.Vəliyev. Naxçıvanın şair və yazıçıları. Bakı, 2008<br>11. Y.Eyvazov.Məhəmməd Tağı Sidqinin publisistikası. Naxçıvan, 2004<br>12. İ.Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti.Bakı,2004<br>13. Ə.Qədimov. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı, 2004<br>14. F.Xəlilov.Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan, Əcəmi, 2015<br>15. N.Əliyeva. Məhəmməd Tağı Sidqi. Naxçıvan, 2020. |

| | | | |
|---|---|---|---|
| | | etmiş mənəviyyatca zənginbir ananı təsvir etməsi. Bər-bəzək düşkünü olan meşşan təbiətlidigər qadının hekayəyə gətirilməsi. Hər iki qadının qarşı-qarşıya qoyulması. Ananın bir qadın kimi ailədəki qayğıkeşliyi və valideynlik borcunun hekayənin əsas qayəsini təşkil etməsi.<br>"Övlad məhəbbəti" hekayəsində balanın Anaya bəslədiyi sonsuz məhəbbətin tərənnümü. Qızın öz ağıllı hərəkəti ilə anasını ölümdən qurtarması. Cinayətkar ananın övlad məhəbbətinə görə bağışlanması. Həbsxananın sökülüb yerinə "Övlad məhəbbəti" adlı bir abidənin ucaldılması.<br>"Ruqiyyənin söhbəti" hekayəsində də övladın anaya məhəbbəti ideyasının ön plana çəkilməsi. Hekayədə hər bir uşağın valideynlərinin narahatlığına səbəb olan amilləri dəf etməyi bacarmasından bəhs edən parçalar. | Səh.123-126<br>16. İnternet saytı |
| **6** | 01.12.2022 | **Sidqinin mənzum nəsihətnaməsi. "Kəblə Nəsir" mənzum hekayəsi, pedaqoji əsərləri**<br>**Qısa icmalı:** Ordubadda maarifçilik işlərinə başlaması. Bir müddətdən sonra Naxçıvana dəvət alması. Azərbaycan maarifçiliyində M.T.Sidqinin rolu. M.T.Sidqinin maarifçi-demokratik fəaliyyətindən ruhanilərin, bəylərin və xanların təşvişə düşməsi. M.T.Sidqinin maarifçilik fəaliyyətindənrus çarizminin narazılığı. M.T.Sidqinin maarifə, elmə, təhsilə verdiyi qiymət. | 1.Azərbaycan ədəbiyyat tarixi-Bakı, Azərb. Elmlər Akademiyasının nəşriyyatı<br>2.A.Axundov.,S.Vəliyev. Naxçıvanın şair və yazıçıları. Bakı, 2008<br>3.Y.Eyvazov.Məhəmməd Tağı Sidqinin publisistikası. Naxçıvan, 2004<br>4.İ.Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti.Bakı,2004<br>5.Ə.Qədimov. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı, 2004<br>6.F.Xəlilov.Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan, Əcəmi, 2015<br>7.N.Əliyeva. Məhəmməd Tağı Sidqi. Naxçıvan, 2020.səh.108-109-102-103<br>8.İnternet saytı |
| **7** | 08.12.2022 | **Sidqinin elmi-pedaqoji əsərləri."Puşkin" əsəri**<br>**Qısa icmalı:** 1880-ci illərdə M.T.Sidqinin tarixi-fəlsəfi nəsr əsərlərində maarifçi mətləblərin ön plana çəkilməsi. 1899-cu il mayın 26-da rus şairi A.S.Puşkinin anadan olmasının 100 illiyi münasibətilə "Tərbiyə" məktəbində yubiley keçirilməsi. M.T.Sidqinin yubileydə "A.S.Puşkin" adlı xüsusi məruzə ilə çıxış etməsi. 1914-cü ildə həmin məruzənin mətninin kitab şəklində İsa bəy Aşurbəylinin "Kaspi" mətbəəsində çapdan buraxılması. Əsərdə M.T.Sidqinin maarifçi fikirləri ilə yanaşı, şeir və sənət haqqında nəzəri | 1.Azərbaycan ədəbiyyat tarixi-Bakı, Azərb. Elmlər Akademiyasının nəşriyyatı<br>2.A.Axundov.,S.Vəliyev. Naxçıvanın şair və yazıçıları. Bakı, 2008<br>3.Y.Eyvazov.Məhəmməd Tağı Sidqinin publisistikası. Naxçıvan, 2004<br>4.İ.Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti.Bakı,2004<br>5.Ə.Qədimov. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. |

| | | | |
|---|---|---|---|
| | | görüşlərinin verilməsi. A.S.Puşkinin rus ədəbiyyatındakı rolu və mövqeyi haqqındakı mülahizələri. M.T.Sidqinin rus və Avropa mədəniyyətinə dərindən bələd olması | Bakı, 2004<br>6.F.Xəlilov.Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan, Əcəmi, 2015<br>7.N.Əliyeva. Məhəmməd Tağı Sidqi. Naxçıvan, 2020.səh.108-109-102-103<br>8.İnternet saytı |
| **8** | | **Sidqinin "Heykəli-insanə bir nəzər" , "Coğrafiya" əsəri**<br>**Qısa icmalı:** . 1882-ci ildə Ordubadda "Heykəli-insanə bir nəzər" əsərini yazması. Əsərin ilk dəfə 1898-ci ildə İranda fars dilində nəşr olunması. "Nasiri" qəzetində "Məqaleyi-məxsusə" başlığı ilə çap olunması. 1912-ci ildə Bakıda Ziya kitabxanasının naşirliyi ilə İsa bəy Aşurbəylinin "Kaspi" mətbəəsində "Heykəli-insanə bir nəzər" adı ilə ikinci dəfə çap olunması. Əsərdə insanın bəşər tarixində keçdiyi həyat yolunun mərhələlərinin təsviri. İnsanın təbiətində olan hərislik və tamahkarlıq hissinin verilməsi. Əsərdə yazı mədəniyyəti haqqında müəllifin fikirləri. M.T.Sidqinin əlifba haqqında söylədiyi mülahizələr. | 1.Azərbaycan ədəbiyyat tarixi-Bakı, Azərb. Elmlər Akademiyasının nəşriyyatı<br>2.A.Axundov.,S.Vəliyev. Naxçıvanın şair və yazıçıları. Bakı, 2008<br>3.Y.Eyvazov.Məhəmməd Tağı Sidqinin publisistikası. Naxçıvan, 2004<br>4.İ.Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti.Bakı,2004<br>5.Ə.Qədimov. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı, 2004<br>6.F.Xəlilov.Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan, Əcəmi, 2015<br>7.N.Əliyeva. Məhəmməd Tağı Sidqi. Naxçıvan, 2020.səh.108-109-102-103<br>8.İnternet saytı |

**Fənn müəllimi:** **Dos.N.S.Əliyeva**